*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 may 2015-ci il № 39 (1955) Qiyməti 25 qəpik


*Ön xətdən reportaj*

## "Azərbaycan əsgəri hər addımda qəhrəmanlıq göstərməyə qadirdir"

***Müharibə dövründən, daha dəqiq desək, 1993-cü ilin yayından bəri bu bölgəyə ezamiyyətlərimiz çox olub və hər dəfə ön xətdə sinəsini düşmənə sipər edən məğrur gənclərimizlə tanış olmaqdan qürurlanmışıq. O vaxtdan bəri bu bölgədə yerli əhali ilə ordunun sıx ünsiyyətini hiss etmişik, şübhəsiz, bu sahədə hər iki tərəfin - həm ordunun, həm də rayon ictimaiyyətinin rolu əhəmiyyətlidir.***



Yaxşı xatırlayırıq, bir neçə il öncə hərbi hissə komandiri ilə söhbətimizdə öyrənmişdik ki, rayon rəhbərliyi bütün bayramlarda, tədbirlərdə ön xətdəki bölmələrə gələrək döyüşçüləri ziyarət edir.

Komandirə görə, bölgədə yetərli nüfuza malik olan rayon icra başçısı əsgərlərə mənəvi dayaq olmağı daim özünə vətəndaşlıq borcu bilir. Bu maraq hissi bizi icra başçısı ilə görüşüb söhbət etməyə ruhlandırdı və hərbi hissədən qayıdanda biz onun köməkçisi ilə əlaqə saxladıq. Dərhal cavab alıb görüşə yollandıq.

Tofiq Zeynalov rayonun sayılıb-seçilən ziyalılarından biridir və uzun müddətdir ki, sərhəd bölgəsində yerləşən rayona bacarıqla rəhbərlik edir. "Ordu və cəmiyyət" rubrikası üçün maraqlı müsahibəmiz alındı. Tofiq müəllim bizə rayonun qədim tarixindən, ötən dövrlərdə tovuzluların yadellilərə qarşı mübarizəsindən danışdı. Bildirdi ki, mənfur qonşular tərəfindən sərhəd kəndlərimizdə dəfələrlə təxribatlar törədilib və igidlərimiz belə cəhdlərin qarşısını mərdliklə alıblar. İcra başçısı ali təhsilini başa vuraraq rayonda əmək fəaliyyətinə başlamasını və bir müddət keçmiş komsomol işçisi olduğunu həvəslə vurğuladı və qeyd etdi ki, 1972-ci ildə Tovuz məktəblilərindən ibarət komanda "Şahin" hərbi idman oyunlarının ittifaq yarışında qalib olmuşdu. Təsəvvür edin, 15 müttəfiq respublika arasında keçirilən mötəbər yarışın qalibi adını qazanmaq nə deməkdir? Əlbəttə, komandanın birinciliyə hazırlanmasında Tofiq müəllimin də az rolu olmamışdı.

Bu söhbəti nəyə görə xatırladırıq? - görüşümüzdə hərbi hissə komandiri sərhəd bölgəsində ictimaiyyət nümayəndələrinin orduya mənəvi dəstəyindən həvəslə danışdı.

- İnsanlar cəbhə bölgəsinin çətinliklərinə mərdliklə sinə gərirlər, - dedi polkovnik-leytenant Sahib Şahverdiyev. - Sərhəd kəndləri düşmənlə təmas xəttinə çox yaxındır, bəzən dinc əhali qarşı tərəfin təxribatları ilə üzləşməli olur, amma heç kəs doğma ocağını tərk etmir. Əlbəttə, bu əmin-amanlığa zəmin yaradan əsas amil dövlətimizin rəhbərliyi tərəfindən diqqət və qayğı ilə əhatə olunan Silahlı Qüvvələrimizin hərbi qüdrətidir. Artıq düşmən yaxşı bilir ki, müasir silah və texnikaya malik olan ordumuzun gücü qarşısında tab gətirə bilməyəcək. Həmişə bu fikirdəyəm ki, əsgərin gücü öz xalqının dəstəyindən qüvvət alır. Azərbaycan xalqı öz ordusuna inanır və etibar edir. Belə birlik və inam olan yerdə heç bir qüvvə sabitliyimizi, əmin-amanlığımızı poza bilməz.

**(Ardı 2-ci səhifədə)**

## Elmar Məmmədyarov: Azərbaycan ərazilərinin işğalı heç vaxt Ermənistan tərəfindən arzulanan siyasi nəticə doğurmayacaq

***Mayın 19-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Şurasının Nazirlər Komitəsinin Brüsseldə keçirilən 125-ci toplantısında çıxış edib.***

Elmar Məmmədyarov çıxışında deyib ki, demoqrafik təhlükəsizlik demokratik cəmiyyətlərə, ortaq dəyərlərə əsaslanan tolerantlığın təşviqi ilə münaqişə və qeyri-sabitlikdən çəkinməyə şərait yaradır. Avropada qeyri-tolerantlığın artması şəraitində terrorçuluğa səbəb olan radikal ekstremizm və radikallaşmaya qarşı mübarizə bir çox Avropa dövlətlərində gündəliyin əsas məsələsi olmalıdır.

Nazir bildirib ki, Avropa Şurasının Terrorçuluğun qarşısının alınmasına dair Konvensiyasını imzalayan və ratifikasiya edən 32 üzv dövlətdən biri olan Azərbaycan toplantıda ekstremizm və terrorçuluğa səbəb olan radikallaşma ilə mübarizə üzrə bəyannamənin qəbulunu dəstəkləyib. Eyni zamanda, terrorçuluq və ekstremizmə qarşı mübarizə konkret din və ya mədəniyyəti hədəf seçməməlidir. Son illərdə bir sıra Avropa ölkələrində islamofobiyanın narahatedici şəkildə artması meyilləri bu fenomenə qarşı birgə səylərimizin labüdlüyünü təsdiq edir.

Terrorçuluq bir çox hallarda təcavüzkar separatizmlə ayrılmaz şəkildə əlaqəlidir. Silahlı münaqişələrdən zərər çəkən ərazilər bu terrorçuluğun yayılması üçün münbit şərait yaradır. Beynəlxalq ictimaiyyət beynəlxalq hüququn qəbul edilmiş norma və prinsipləri, xüsusilə ərazi bütövlüyünə hörmət və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında münaqişələrin həllini tezləşdirməli və dövlətlərə öz ərazisi üzərində suverenlik və təhlükəsizliyin bərpa edilməsində yardımçı olmalıdır. Avropa Şurasının üzərinə bu xüsusda vacib rol düşür.

E.Məmmədyarov vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş və ya həlli uzadılmış ən uzunmüddətli münaqişə olaraq bədnam şəkildə Azərbaycan ərazilərinin 20 faizinin işğalı və bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi ilə nəticələnib.

Ermənistan hökumətinin güc tətbiqi vasitəsilə hərbi təcavüz nəticəsində əldə edilmiş status-kvoya güvənməsi təhlükəli təxmindir. Azərbaycan ərazilərinin işğalı və yerli əhalinin ata-baba yurdlarından etnik təmizlənmə yolu ilə çıxarılması həll yolu deyil və heç zaman Ermənistan tərəfindən arzulanan siyasi nəticə doğurmayacaq. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində açıq şəkildə tələb olunduğu kimi, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması mühüm etimad quruculuğu tədbiri ola bilər və davam edən sülh prosesinin gedişi tamamilə dəyişə, bütün Cənubi Qafqaz regionunda hərtərəfli və davamlı inkişaf üçün geniş imkanlar aça bilər.

**AZƏRTAC**

## İtaliya Senatında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dinləmələr keçirilib

***Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov bu ölkənin Senatında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilmiş dinləmələrdə iştirak edib.***

ATƏT-in Parlament Assambleyasında İtaliya nümayəndə heyətinin rəhbəri senator Paolo Romani və digər üzvlərin təşəbbüsü ilə keçirilmiş tədbirdə V.Sadıqov münaqişənin tarixi, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğalı, bir milyona yaxın qaçqın və məcburi köçkünün taleyi, Xocalıda törədilmiş soyqırımı, münaqişənin həlli istiqamətində aparılmış danışıqlar prosesi və Azərbaycanın mövqeyi haqqında məlumat verib. Vurğulayıb ki, bir çox nüfuzlu beynəlxalq təşkilatların münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair sənədləri mövcud olsa da, problem indiyədək öz həllini tapmayıb.

Səfir ölkəmizin BMT Nizamnaməsinin və Helsinki Yekun Aktının məqsəd və prinsiplərinə sadiq olduğunu bildirib. Qeyd edib ki, münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, ATƏT-in sənəd və qərarlarına uyğun həlli zəruridir.

Sonda İtaliya nümayəndə heyətinin üzvlərini maraqlandıran suallar cavablandırılıb, mövzu ilə bağlı müzakirələr aparılıb.

**AZƏRTAC**

## Fransadakı Azərbaycan icması bəyanat yayıb

***Fransadakı Azərbaycan icması Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində qeyri-qanuni yaradılan, heç bir ölkə və beynəlxalq təşkilat tərəfindən tanınmayan qondarma rejimin nümayəndəsi Bako Saakyan və onu müşayiət edən şəxslərin mayın 17-19-da Fransaya səfərini, eləcə də Drom departamentinin Villörbann və Sarsel şəhərləri ilə hazırda işğal altında olan Azərbaycanın mədəniyyət beşiyi Şuşa və Ağdərə şəhərləri arasında "dostluq və qardaşlıq xartiyası"nın imzalanmasını pisləyən bəyanat yayıb.***

Bəyanatda bildirilir ki, Azərbaycanın qədim şəhərləri olan Şuşa və Ağdərə 20 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. İstər seperatçı rejimin "prezidenti"nin Fransaya səfərinin, istərsə də işğal altında olan Azərbaycanın iki şəhəri ilə "dostluq və qardaşlıq xartiyası"na dair sənədin imzalanmasının heç bir beynəlxalq hüquqi əsası yoxdur. Bu, yalnız Azərbaycan ilə Fransa arasında inkişaf etməkdə olan dostluq əlaqələrinə xələl gətirə bilər.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal edildiyi, bir milyondan artıq azərbaycanlının doğma yurdlarından silah gücünə çıxarıldığı, əsir və girov götürülən günahsız soydaşlarımızın erməni düşərgələrində insanlığa yaraşmayan işgəncələrə məruz qaldığı və onların taleyindən heç bir xəbər olmadığı bəyanatda öz əksini tapıb.

Bəyanatda Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində minlərlə evin və inzibati binanın, məktəblərin, tibb müəssisələrinin, mədəniyyət saraylarının, kitabxanaların, tarixi abidələrin, muzeylərin, kənd təsərrüfatı və sənaye obyektlərinin, su hövzələrinin vəhşicəsinə yerlə-yeksan edildiyi qeyd olunub.

Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yeridən ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan şəhəri Xocalıda törətdikləri vəhşiliklər, qəddarlıqla həyata keçirilən soyqırımı zamanı hətta dinc sakinlərə belə aman verilmədiyi, qadınların və uşaqların amansızlıqla qətlə yetirildiyi bəyanatda diqqətə çatdırılıb.

Daha sonra bəyanatda qeyd olunur ki, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini heç bir şərt qoymadan azad etməsi barədə Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə baxmayaraq, bu təcavüzkar ölkə öz işğalçılıq siyasətini indi də davam etdirir, işğal etdiyi ərazilərdə qeyri-qanuni olaraq əhali yerləşdirir.

Bəyanatın sonunda deyilir: Biz ümid edirik ki, beynəlxalq ictimaiyyət, ATƏT-in Minsk Qrupunun həmsədri olan Fransa münaqişənin ədalətli və düzgün həllinin axtarışında, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində öz səylərini əsirgəməyəcək.

Bəyanat Drom departamentinin rəhbərlərinə, senator və deputatlarına və digər rəsmi təşkilatlara göndərilib.

**AZƏRTAC-ın materialları əsasında**



*"Heydər Əliyev irsini öyrənirik"*

# Müasir Azərbaycan Ordusunun qurucusu

***Müdrik, uzaqgörən dövlət xadimləri öz ölkəsinin və millətinin taleyində mühüm rol oynayıb, xalqının xilaskarı olub. Heydər Əliyev də xalqımızın tarixinə Azərbaycan dövlətinin qurucusu və banisi kimi daxil olub.***

XX əsrin 70-ci illərindən Azərbaycana rəhbərlik edən ümummilli liderimizin yüksək təşəbbüskarlığı, uzaqgörən siyasəti sayəsində ölkəmiz, sözün həqiqi mənasında, intibah dövrünü yaşamışdır. Həmin illər ölkəmizin tarixinə yüksəliş dövrü kimi daxil olub. Bu o vaxtlar idi ki, Azərbaycan keçmiş Sovetlər Birliyinin tərkibində idi. Birbaşa Moskvadan - Kremldən idarə olunurdu. Lakin Heydər Əliyev ölkəmizin inkişafı naminə böyük çətinliklərlə də olsa, mərkəzin diqqətini, qayğısını Azərbaycana yönəldə bilmişdi.

1971-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü və uzaqgörənliyi sayəsində Bakıda Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Burada yüzlərlə, minlərlə azərbaycanlı gənc təhsil aldı. Milli zabit kadrlarının hazırlanmasında Hərbi Liseyin müstəsna rolu vardır. Bu gün ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti həmin məktəbin məzunlarıdır. Onlar Qarabağ müharibəsində böyük hünər və rəşadət göstərdilər.

1993-cü il iyunun əvvəllərində ölkəmizdə çox gərgin vəziyyət yaranmışdı. Həmin dövrdə iqtidarda olan qüvvələr dövlətçilik təcrübələri olmadığından ölkəni idarə edə bilmirdilər. Ordu quruculuğu istiqamətində heç bir addım atılmır, torpaqlarımız işğala məruz qalırdı. Ölkədə xaos hökm sürürdü. Müstəqilliyinə yenicə qovuşmuş Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Həmin ağır günlərdə xalqın iradəli, qətiyyətli və təcrübəli bir dövlət xadiminə çox böyük ehtiyacı var idi. Azərbaycan xalqı dövləti və milləti yalnız Heydər Əliyev dühasının xilas edəcəyinə inanırdı. Məhz buna görə də bu böyük tarixi şəxsiyyətə, ümummilli liderimiz Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdi.

Siyasi hakimiyyətə ikinci dəfə qayıdan Heydər Əliyev dövlətçilik tariximizin yeni mərhələsinin - müstəqilliyimizi əbədiləşdirən müqəddəs bir yolun başlanğıcını qoydu. Bu dahi şəxsiyyətin hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Ulu öndərimiz düçar olduğumuz bəla və xaosu aradan qaldırmaq üçün heç bir dövlət başçısının öhdəsindən gələ bilməyəcəyi bir məsuliyyəti üzərinə götürdü, yeni bir tarix yazdı, Azərbaycanın əbədi müstəqilliyini təmin etdi.

Ulu öndərin tarixi qayıdışından sonra ordu quruculuğu istiqamətində qətiyyətli addımlar atıldı. Orduda aparılan quruculuq işləri qısa müddət ərzində öz bəhrəsini verdi. Getdikcə güclənən Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən düşmən geri çəkildi. 1994-cü il mayın 12-də atəşkəs elan olunduqdan sonra orduda yeni islahatlar həyata keçirildi. Silahlı Qüvvələrin maddi-texniki təminatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı sahəsində inamlı işlər görüldü.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev, həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Bu gün tam inamla demək olar ki, ölkəmizin müstəqilliyini təmin etməyə qadir olan güclü, qüdrətli ordumuz var. Bununla hər birimiz fəxr edirik. Bunun üçün xeyli iş görülüb, səmərəli və gərgin islahatlar aparılıb. Heydər Əliyevin dövlət və xalq qarşısındakı ən başlıca xidmətlərindən biri də qısa müddətdə ordumuzu vahid mərkəzdən idarə olunan monolit bir qüvvəyə çevirməsi oldu. Ali Baş Komandanın rəhbərliyi altında az bir müddətdən sonra ordu Azərbaycan dövlətinin müstəqilliyinin təminatçısı kimi vəzifələrini şərəflə yerinə yetirməyə başladı.

Ümummilli liderimiz Heydər Əliyevin xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır. Ulu öndərin dövlət və ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, ideologiyamızın inkişafı və formalaşması, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi bu gün cəmiyyətdə dərindən öyrənilir və təbliğ olunur. XX əsrin ən böyük dühalarından olan ümummilli liderimiz Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti hər bir Azərbaycan vətəndaşı, hər bir zabit, hər bir hüquqşünas, hər bir əsgər üçün örnəkdir.

**Ədliyyə polkovniki
Natiq HƏSƏNOV**

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun mənzil-qərargahında keçirilən görüşlərdə iştirak edib





Mayın 20-də Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Brüsseldəki mənzil-qərargahında Şimali Atlantika Alyansının Hərbi Komitəsinin "Tərəfdaşlığın uyarlılıq təşəbbüsü" və "Qətiyyətli dəstək" missiyalarına töhfə verən qeyri-NATO ölkələri ilə Baş Qərargah rəisləri səviyyəsində keçirilən görüşlərdə iştirak edib.

Hərbi Komitənin "Qətiyyətli dəstək" formatında baş tutan iclasında Əfqanıstandakı siyasi və təhlükəsizlik vəziyyəti, "Qətiyyətli dəstək" missiyasının gedişi, Əfqanıstan təhlükəsizlik təsisatlarının və qüvvələrinin hərbi və idarəetmə bacarıqlarının artırılması məsələləri müzakirə edilib.

Hərbi Komitənin Uyarlıq Platforması formatında Baş Qərargah rəisləri səviyyəsində keçirilən ilk iclasda 25 tərəfdaş dövlətin nümayəndələri iştirak edərək NATO-nun Uels Sammitində qəbul olunmuş "Tərəfdaşlarla Uyarlıq Təşəbbüsü" çərçivəsində tərəfdaşlarla uyarlığın artırılması perspektivləri, tərəfdaşların NATO təlimlərində iştirakının genişləndirilməsi imkanları müzakirə olunub.

Baş Qərargah rəisi səfər zamanı Türkiyə, Gürcüstan, Moldova və Polşanın Baş Qərargah rəisləri ilə ikitərəfli görüşlər keçirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Təlimə hazırlıq yüksək səviyyədədir



Dağlar qoynunda yerləşən hərbi hissənin ərazisinə daxil olanda sıra ilə qurulmuş çadırlar diqqətimi cəlb etdi. Polkovnik-leytenant Etibar Əhmədov bildirdi ki, şəxsi heyət təlimə hazırlaşır. "Qarşıdakı təlimlərdə uğur qazanmaq üçün hazırlıq işlərinə indidən başlamışıq. Neçə gündür zabit və əsgərlərimiz təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq məşğələlər keçirlər. Dəfələrlə irimiqyaslı təlimlərdən alnıaçıq, başıuca qayıtmışıq. Hazırlıq məşğələsi keçməkdə məqsədimiz bu ənənəni davam etdirməkdir. Şəxsi heyət təlimlərdə həvəslə iştirak edir. Hər bir zabit və əsgərimizdə mübarizlik ovqatı var", - deyə zabit vurğuladı.

Söhbətimi mayor Qalib Mahmudovla davam etdirdim. O da qeyd etdi ki, təlimə hazırlıq işləri yüksək səviyyədə gedir. Səhra şəraitində şəxsi heyətin qidalanması da başlıca amillərdəndir. Bildiyimiz kimi, təlimdə ilk olaraq arxa cəbhə idarəetmə məntəqəsi açılır. Səhra mətbəxləri quraşdırılır. Zabit və əsgərlərimiz bu sahədə peşəkardırlar, öz vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər. Əminəm ki, bu dəfəki təlimdə də uğur qazanacağıq.

Təlimə hazırlıq mərhələsində fərqlənən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularından kiçik çavuş Asif Ellazayev, Seymur Şahverdiyev, Elvin İrazov və əsgər Əli Hacıyev hər bir tapşırığın öhdəsindən bacarıqla gəlməyə çalışırlar.

Təlimə hazırlıq işləri davam edir. Şəxsi heyət mayor Qalib Mahmudovun əmr və göstərişlərini yerinə yetirir, təcrübələrini artırır. Əsgərlərin üz-gözündən təlimdə uğur qazanacaqlarına əminlik hiss olunur. Təbiidir ki, belə əminlik hissi ilə təlimə yollanan hərbçilər doğma hərbi hissəyə alnıaçıq, başıuca qayıdacaqlar.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Gürcüstanın Müdafiə nazirləri arasında telefon danışığı olub

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşelinin təşəbbüsü ilə telefon danışığı olub.

Xanım Tinatin Xidaşeli Azərbaycan paytaxtının Binəqədi rayonu ərazisində yerləşən çoxmərtəbəli yaşayış binasında baş verən yanğında insanların həlak olmasının və yaralanmasının onlarda böyük kədər hissi doğurduğunu diqqətə çatdırıb, həlak olanların ailə üzvlərinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, xəsarət alanlara tezliklə sağalmağı arzulayıb.

Telefon danışığında xanım Tinatin Xidaşeli Azərbaycan-Gürcüstan arasında hərbi sahədə əməkdaşlıqda əldə edilən nailiyyətlərin və razılaşmaların qüvvədə qalması və daha da inkişaf etdiriləcəyinə əminlik ifadə edib.

Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında hərbi sahədə əməkdaşlığın perspektivlərinə dair qısa fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov xanım Tinatin Xidaşeliyə göstərdiyi diqqətə görə minnətdarlığını bildirib.

## Ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara istifadə edilməmiş məzuniyyətə görə kompensasiyanın hesablanması və ödənilməsi qaydaları təsdiq olunub

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qərarı ilə 1994-cü il fevralın 1-dən 2010-cu il iyunun 12-dək həqiqi hərbi xidmətdən ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin dövrün təqvim illərində istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın hesablanması və ödənilməsi qaydaları təsdiq olunub.

Qərarın tələblərinə əsasən, sənədlərin toplanması, kompensasiya məbləğinin hesablanması və ödənilməsi işinin təşkili məsul vəzifəli şəxslərdən yaradılan müvafiq komissiyalar tərəfindən həyata keçiriləcək.

İstifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanı almaq üçün hərbi qulluqçu ərizəni yalnız poçt rabitəsi xidmətləri vasitəsilə həqiqi hərbi xidmətdən buraxılarkən xidmət etdiyi hərbi hissə və ya müəssisəyə, hərbi hissə ləğv edilmişsə, onun tabeliyindəki yuxarı idarəetmə orqanına göndərməlidir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***22 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 79 dəfə pozub.

Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Şıxlar, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 22-də Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Piter Svedberq, təmas xəttinin qarşı tərəfində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Yevgeni Şarov keçiriblər.

Monitorinq insidentsiz başa çatıb.

# "Azərbaycan əsgəri hər addımda qəhrəmanlıq göstərməyə qadirdir"

**(Əvvəli 1-ci səhifədə)**

Zabit qeyd etdi ki, hərbi hissədə xidmət edən gənclər döyüş vərdişlərinə həvəslə yiyələnir, torpaqlarımızı qorumaq üçün silah və hərbi texnikaların sirlərini mənimsəyirlər. "Qoy xalqımız bilsin ki, bu gün Azərbaycan əsgərinin əhval-ruhiyyəsi yüksəkdir və hər addımda qəhrəmanlıq göstərməyə qadirdir".

Qərargahda çox ləngiməyib ön xəttə yola düşürük. Bayaq komandirin də qeyd etdiyi kimi, yolboyu rastlaşdığımız kəndlər təmas xəttinə yaxındır. Düşmən istənilən növ silahlardan dinc sakinləri gülləyə tuta bilər. Doğrudur, əvvəlki illərdə bu bölgədə bir səksəkə var idi, ermənilər tez-tez kəndləri atəşə məruz qoyurdular. Amma indi cəbhə xəttində üstünlük öz əlimizdədir və ordumuzun artan hərbi qüdrəti düşməni vahiməyə salıb. İşğalçı dövlətdə artıq anlayırlar ki, Azərbaycan əsgərinin qarşısında dayana bilməyəcəklər.



- Bu gün düşmənlə təmas xəttində heç bir hadisə baş verməyib, döyüş növbətçiliyi öz qaydasında davam edir, - deyə bizi səngərdə qarşılayan bölük komandiri baş leytenant Pərviz Məmmədov məlumat verərək söhbətinə davam edir. - Yaz aylarında hər tərəf yaşıllığa büründüyü üçün qarşı tərəfin mövqelərini nəzərdən keçirmək bir qədər çətinləşir. Buna görə də döyüş növbəsində dayanan şəxsi heyətin sayıqlığını daha da artırmağa çalışırıq. Hər bir əsgərimizin hazırlığı ürəkaçandır.

Bölük komandiri ali hərbi təhsilini başa vurandan sonra kifayət qədər özəl çətinlikləri olan bölgədə taqım komandiri kimi xidmətə başlayıb. Sərt təbiəti olan şəraitdə xidmət etmək qısa bir vaxtda ona əsl zabitə xas olan keyfiyyətlər aşılayıb. Daha cəsarətli, dözümlü olmağı öyrənib, ən çətin məqamda tabeliyindəki şəxsi heyəti idarə etmək üçün vacib olan vərdişlərə yiyələnib.

Baş leytenant söhbətimizdə bildirir ki, cəbhə xəttində xidmət etmək komandirdən ikiqat məsuliyyət tələb edir. "Gərək döyüş postunda xidmət edən hər bir əsgər vətənpərvər, məğrur və dözümlü olsun. Yoxsa ona döyüş növbətçiliyini etibar etmək olmaz. Belə şəraitdə komandir olan zabit bir vacib məqama diqqət yetirməlidir ki, düşmən tərəfindən təxribat törədilərsə, o, tabeliyindəki əsgərlərlə döyüşə atılmağa qadir olmalıdır. Hazırda sıralarımızda kiçik çavuşlar Vurğun Sailov və Etibar Mürşüdov kimi bacarıqlı əsgərlərimiz, vətənpərvər döyüşçülərimiz var ki, istənilən an düşmənlə mübarizə meydanında hünər və şücaət göstərmək əzmindədirlər".

Budur, müasir müdafiə-istehkam tələblərinə cavab verən döyüş postlarına daxil oluruq. Burada yaradılan şərait təhlükəsizlik qaydalarına tam cavab verir. Hər kəs döyüş növbətçiliyində ayıq-sayıq dayanaraq Vətənimizi hərbi təcavüzdən qoruyur. Təcrübəli atıcı Eşqin Məhərrəmov Yevlax rayonundan orduya çağırıldığını, ay yarımlıq müddətdən sonra hərbi xidmətini başa vuracağını bildirir.

- Hərbi xidmətim dövründə əsl döyüş məktəbi keçmişəm, - deyə Eşqin ordu həyatının sınaqlarında bərkidiyini, Vətəni qorumağa qadir olan bacarıqlı döyüşçü kimi formalaşdığını bildirir. - Qeyd etmək istərdim ki, hər bir gəncin hərbi xidmətdə vətənpərvər, səriştəli döyüşçü kimi yetişməsində komandirin rolu böyükdür. Əgər əsgərlər hər addımda komandirin diqqətini, qayğısını hiss edirlərsə, onda nümunəvi hərbi kollektiv formalaşır. Bu mənada baş leytenant Pərviz Məmmədov layiqli örnəkdir. O, təcrübəli bölük komandiri kimi həmişə bizim qayğımıza qalır, hansı əsgərin problemi üzə çıxırsa, köməyini əsirgəmir. Belə qədirbilən, tələbkar, vətənpərvər komandirlə müharibə meydanında öz sözümüzü deməyə hazırıq.

- Eşqin, bayaq komandirin səni təqdim edəndə bildirdi ki, az vaxtdan sonra ordu həyatına "əlvida" deyəcəksən...

- Elədir, hərbi xidmətimi başa vurmağa az qalıb. Sevinirəm ki, ön cəbhədə xidmət edərək Vətənimizi qorumağın sirlərinə yiyələnə bilmişəm. Hazırlıqlı döyüşçü kimi istənilən vaxt torpaqlarımızın işğaldan azad edilməsi uğrunda haqq savaşına qatılmağa hazıram. Baş leytenant Pərviz Məmmədov kimi bacarıqlı komandirimi, çətin gündə sınaqdan çıxan mətin əsgər dostlarımı heç vaxt unutmaram.

Növbəti postda bacarıqlı manqa komandiri kiçik çavuş Samir Şamilovla söhbətləşirik. Bir vaxt Naxçıvan bölgəsində xidmətini başa vuran tovuzlu gənc yenidən taleyini orduya bağlayıb. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi doğma el-obasının müdafiəsində dayanmaqdan qürurlanır.

- Əvvəla siz də sağ olun ki, qayğılarımızı, ürək sözlərimizi qələmə alırsınız, - deyir manqa komandiri. - Bura Vətənimizin hüdudlarının qorunduğu sərhəd rayonudur. Bir vaxtlar bu yerlərdə qanlı döyüşlər gedib, mərd oğulların hesabına düşmən bir qarış da olsun ərazi işğal edə bilməyib. İgid həmyerlilərimin döyüş yolunu davam etdirməyi özümə borc bilirəm. Hər döyüş növbətçiliyini ciddi sınaq bilirik, əgər ayıq-sayıqlığımız olmasa, bu strateji mövqelər qoruna bilməz.

Gənc döyüşçülərdən Vüqar Vəliyev, İlhamis İbrahimov və başqaları ilə postlarda söhbətləşib arzularını, qayğılarını dinləyirik. İnanırıq ki, hər kəsin ürəyində bir arzu boy atır: işğalda olan ərazilərimizi düşməndən tezliklə təmizləyib Vətənimizin ərazi bütövlüyünü təmin etmək.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"**

# "Çanaqqala: barışa uzanan yol"

## Bakıda növbəti beynəlxalq konfrans



Mayın 22-də Türkiyə, Böyük Britaniya və Avstraliyanın Azərbaycandakı səfirliklərinin Bakı Dövlət Universiteti ilə birgə təşkil etdikləri beynəlxalq konfransda tələbə-müəllim heyəti, xarici səfirliklərin və ictimaiyyətin nümayəndələri, həmçinin Silahlı Qüvvələrimizin zabitləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, Milli Məclisin üzvü, akademik Abel Məhərrəmov tarixi Çanaqqala zəfərinin bütün türk dünyasının taleyində mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. O vurğulayıb ki, qardaş Türkiyənin müstəqil dövlətçiliyinin qorunub saxlanmasında müstəsna rol oynamış bu zəfər azadlığa və istiqlaliyyətə gedən yolun başlanğıcı olmaq etibarilə başqa xalqlar üçün ən dəyərli qəhrəmanlıq nümunəsidir. Rektorun sözlərinə görə, əgər bir əsr öncə baş tutan bu qeyri-bərabər savaşda türk milləti zəfər qazanmasaydı, müasir böyük Türkiyədən danışmaq mümkün olmazdı.



"Güclü dövlətlərin hərbi qüvvələri qarşısında qələbə qazanmağa qadir olan Türkiyə Cümhuriyyətinin, türk xalqının mübarizəsi ona görə zəfərlə başa çatdı ki, bu xalq yalnız haqq-ədalət naminə, öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparırdı", - deyə rektor bildirib ki, Azərbaycan xalqının 3 mindən artıq qəhrəman oğlu da bu savaşa qatılaraq iki qardaş millətin sarsılmaz tarixi birliyini təcəssüm etdirib.

Sonra Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper, Böyük Britaniyanın və Avstraliyanın ölkəmizdəki səfirləri İrfan Siddiq və Ceyms Marten Larsen, məşhur türkiyəli professor Ahmet Mete Tuncoku, millət vəkili Fazil Mustafa çıxış edərək xalqlar arasında həmrəyliyin və dostluğun möhkəmlənməsində, habelə dünyada milli barışığın və əmin-amanlığın təmin edilməsində belə mötəbər tədbirlərin əhəmiyyətini vurğulayıblar.

**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# İlk addımda uğur qazandım

***Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur. Bu borcu şərəf və ləyaqətlə yerinə yetirmək üçün xidmətə gəldiyim ilk gündən əzmlə çalışıram. Üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə can atıram. Çalışqanlıq isə insanın başını uca edir, ona uğur gətirir. Dahi Nizami Gəncəvi çox gözəl demişdir ki, heç bir uğur təsadüf deyil, əməyin, alın və ürək tərinin nəticəsidir.***



Doğrudan da, əmək sərf etmədən heç nəyə nail olmaq mümkün deyil. Həmişə öyrənməyə, ətrafımda baş verən hadisələrə diqqət göstərməyə çalışmışam. Orta məktəbdə dərslərimi yaxşı oxuyurdum. Bilmədiklərimi də müəllimlərimdən öyrənirdim. Ali təhsil ocağına daxil olmaq arzusu ilə yaşayırdım. Bir gün imtahanlardan uğurla keçib Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil oldum. Tələbəlik illəri bizi öz ağuşuna aldı. Ali təhsil ocağında biliklərimi daha da artırdım. Mətbuatımızın tarixinə daha dərindən bələd oldum. Azərbaycan mətbuatında pozulmaz izlər qoymuş Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Ömər Faiq Nemanzadənin, Əhməd bəy Ağaoğlunun və başqalarının irsini öyrəndim.

Xidmətə gəldiyim gündən isə hərbi bilik və döyüş vərdişlərini dərindən mənimsəməyə başladım. İlk atış çalışmasını uğurla yerinə yetirdim. Başqa əsgərlərimiz kimi mən də hədəfləri dəqiq vurdum. İlk addımda uğur qazana bildim. Əlbəttə ki, bu, çox yaxşı başlanğıc idi.

Hərbi bilikləri öyrəndiyimə görə baş leytenant Ramil Məlikova minnətdaram. Səmərəli keçən hər məşğələdə biz hərbi bilikləri dərindən öyrənirik. Təcrübəmiz artdıqca özümüzü daha güclü, daha qüvvətli hiss edirik.

Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etməkdən qürur duyuram. Hər bir tapşırığı peşəkarlıqla yerinə yetirirəm. Buna görə də xidmətimi başa vurandan sonra qoynunda dünyaya göz açdığım Ağdaş rayonunun Tofiqi kəndinə, doğmalarımın yanına alnıaçıq, başıuca qayıdacağam.

**Əsgər**
**Məmmədxan HƏSƏNOV,**
**"N" hərbi hissəsi**

*Gənc əsgərlərin hazırlığı*

# Ənənə davam edəcək

***Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə yaradılan "N" hərbi hissəsi Vətən torpaqlarının müdafiəsində və düşmənə qarşı aparılan döyüş əməliyyatlarında fəal iştirak edib. Naxçıvan, Ağdərə, Tərtər bölgələrində mərdliklə döyüşən hərbi kollektivin, dövlətçiliyimizin və müstəqilliyimizin qorunmasında da şərəfli xidmətləri olub.***

Bu gün də hərbi hissənin qarşısında duran mühüm vəzifə fədakar döyüşçülər hazırlamaqdır. Polkovnik-leytenant Firdovsi Məmmədov bildirdi ki, Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, gənc əsgərlərlə keçirilən məşğələlərdə onlara ordu həyatının sirləri, müxtəlif döyüş silahlarından istifadə qaydaları dərindən öyrədilir. Təlim və məşğələlərin yüksək səviyyədə keçirilməsi üçün müasir dövrün yeniliklərindən, hərb elminin son nailiyyətlərindən səmərəli istifadə edilir. "Hər bir zabit, əsgər müasir dünyada gedən proseslərdən xəbərdar olmaqla, qarşıda duran vəzifənin yerinə yetirilməsi üçün fədakarlıqla çalışmalıdır", - dedi zabit.



Qürurla qeyd etmək olar ki, ordu sıralarına çağırılan əsgərlərin vətənpərvərlik hissləri, dövlətə və xalqa bağlılığı güclüdür. Vətənpərvərlik ruhunun yüksəldilməsi üçün həyata keçirilən tədbirlər, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu, orduya göstərilən yüksək diqqət və qayğı hər bir gənci nümunəvi xidmət etməyə ruhlandırır.

Vətən uğrunda şəhid olanların xatirə kompleksi əsgər və zabitləri torpaqlarımızın azadlığı uğrunda mübarizəyə səsləyir. Qəhrəman oğulların davamçısı olmaq hər bir əsgərin məramı, məqsədi sayılır.

Bölük komandiri Aqil Omarov vətənpərvər, təcrübəli zabit kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Komandiri olduğu şəxsi heyət döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirir.

Kapitan Aqil Omarov ulu öndərimizin adını daşıyan ali hərbi təhsil ocağının yetirməsidir. Zabit peşəsinin şərəfli, Vətənə, xalqa gərəkli bir peşə olduğunu bildirən zabit deyir:

- Vətənin keşiyində durmaq, müstəqilliyini, suverenliyini qorumaq şərəfli, müqəddəs vəzifədir. Hazırda ən başlıca vəzifəmiz işğalda olan torpaqlarımızı düşməndən azad etməkdir. Buna görə də bütün qüvvə və bacarığımızı bu istiqamətə yönəltmişik. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, "Torpaqlarımızın işğal altında qalmasına razı ola bilmərik. Heç vaxt tarixi torpaqlarımızda ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik..."

Ötən gün keçirilən taktiki təlimdə bölüyün şəxsi heyəti "Bölük hücumda" tapşırığını icra edib. Həyəcan siqnalı ilə qaldırılan şəxsi heyət qarşıya qoyulan döyüş tapşırığına müvəffəqiyyətlə əməl edib. Təlim zamanı fərqlənən əsgərlərlə həmsöhbət oluram.

Əsgər Ceyhun Həsənov Masallı rayonundandır. Bir neçə aydır ki, hərbi xidmətdədir, Vətənə xidmətdən qürur hissi keçirdiyini, əsgəri həyatın hər bir gəncin taleyində əhəmiyyətli mərhələ olduğunu söyləyir. Bildirir ki, mərdlik, mətinlik məktəbi sayılan hərbi xidmət onları Vətən müdafiəçisi kimi formalaşdırır.

Orxan Məmmədov da nizam-intizamlı əsgər kimi tanınır. Xidmətdə fərqləndiyi üçün komandanlıq tərəfindən Məmmədovlar ailəsinə təşəkkür məktubu da ünvanlanıb. O deyir:

- Vətən uğrunda şəhid olmuş Ağamalı Qurbanovun adını daşıyan məktəbi bitirmişəm. Təhsil illərində Vətənimizin tarixi, istiqlal mübarizəsi haqqında müəllimlərimdən çox şey öyrənmişəm. Xalqımızın qəhrəman, igid oğullarının davamçısı olmaq hər birimizin müqəddəs borcudur.

Ağdaş rayonundan olan Sərxan Əkbərov, Zaqataladan Ucal Məmmədov da nümunəvi əsgərlər sırasındadır. Bölük komandiri bacarıqlı əsgərləri ilə öyündüyünü, onlara arxalandığını bildirir. Belə olmasa uğur, qələbə qazana bilməzsən, - deyən zabit əsgərlərin hər birinin döyüşlər zamanı qəhrəmanlıq göstərəcəyini inamla ifadə edir. İnanırıq ki, hərbi hissənin yeni qəhrəmanlar yetirəcəyi günlər uzaqda deyil.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Poçt vaxtında çatmalıdır

***Hərbi hissələrdə döyüş hazırlığının tərkib hissəsi kimi rabitənin önəmi böyükdür. Hərbi əməliyyatlar zamanı davamlı əlaqənin yaradılması düşmən üzərində üstünlük qazanılması üçün olduqca vacib amillərdəndir. Məhz bu səbəbdən hərbi hissələrimizdə rabitəçilərimizin hazırlığına ciddi diqqət yetirilir. Növbəti ezamiyyət zamanı rabitəçilərə baş çəkmək qərarına gəldim.***

- Bizim hərbi kollektiv bacarıqlı, vətənpərvər zabit, gizir və əsgərlərdən ibarətdir, - zabit Nail Səmədov bildirdi. - Hərbi hissənin rabitəçiləri ilk növbədə döyüş növbəsi aparır, bölmələr arasında dayanıqlı və fasiləsiz rabitə əlaqəsinin yaradılması ilə məşğuldurlar. Müxtəlif ixtisaslara yiyələnmiş rabitəçilərimiz öz peşələrini yetərincə mənimsəyiblər.

Bölmənin şəxsi heyəti qarşılıqlı əlaqənin təşkilində rabitənin əhəmiyyətli rolunu başa düşür və yerinə yetirdikləri vəzifənin məsuliyyətini dərindən dərk edirlər. Qərargahda bizə verilən məlumata görə, şəxsi heyət yuxarı komandanlıqla tabelikdəki bölmələr arasında fasiləsiz və dayanıqlı rabitə əlaqəsini həyata keçirir. Eyni zamanda, rabitəçilər döyüş hazırlığı planına əsasən, peşə vərdişlərini artırmaq üçün məşğələlərdə fəal iştirak edirlər.



Rabitəçilərin qüsursuz fəaliyyətinin təşkilində hər şeydən öncə zabitlərin, digər bacarıqlı mütəxəssislərin xidmətini qeyd etmək yerinə düşər. Peşəkar hərbçilər döyüş və ixtisas hazırlığı məşğələlərində şəxsi heyətin rabitəçi kimi bacarıqlarının artırılması üçün əllərindən gələni əsirgəmirlər. Kollektivin bu gün əldə etdiyi uğurlarda Səfərbəy Əmrahov, Emin Məmmədov, Əziz Əmirov kimi zabitlərin, baş gizir Mirəli Ağamirovun, gizir Rəhman Əmirovun zəhməti böyükdür. Onlar öz bilik və vərdişlərini gündəlik xidmət prosesində rabitəçi əsgərlərə həvəslə öyrədirlər.

- Nümunəvi xidmətilə seçilən mütəxəssislərimizdən baş gizir Ədalət Məmmədovun adını xüsusilə qeyd etmək istəyirəm, - zabit Nail Səmədov vurğuladı. - Bu təcrübəli mütəxəssis feldyeger poçt rabitəsi stansiyasının mübadilə məntəqəsinin rəisidir. İntizamlı, hər şeyin yerini bilən, ciddi və məsuliyyətli mütəxəssisdir. Baş gizir Məmmədov davranışı ilə şəxsi heyətə nümunədir.

Baş gizirlə hərbi hissədə görüşüb söhbət etdik. Onun işlədiyi mübadilə məntəqəsində işgüzar atmosferin şahidi olduq. Baş əsgər Yeganə Bağırova ilə o, təzə qəbul edilmiş zərfləri çeşidləyib qeydiyyata alırdılar. Maraqlı xidmət yolu keçmiş Ədalət Məmmədov əslən Lənkərandandır.



Əsgər kimi Sovet ordusu sıralarında Polşada xidmət edib. Hərbi xidmətə maraq onu birdəfəlik ordu ilə bağlayıb. 1989-cu ildə Ukraynada gizirlər məktəbini bitirib və xidmətini davam etdirib.

Azərbaycan müstəqillik qazanandan bir müddət sonra gizir Məmmədov Vətənə qayıdıb və ordumuzun sıralarında xidmətə başlayıb. Müxtəlif hərbi hissələrdə qulluq etsə də, həmişə bir rabitəçi kimi vəzifəsinə məsuliyyətlə yanaşıb.

- İşimiz stansiyaya daxil olmuş sənədləri, bağlamaları ünvanlarına vaxtında çatdırmaqdır, - baş gizir deyir. - Əvvəllər elə vaxt olub ki, texnikanın nasazlığı ucbatından poçt bağlamalarını ünvanına çatdırmaqda çətinlik yaranıb. Amma bu zaman da əlimizdən gələni etmişik ki, bağlamalar ünvanına vaxtında çatsın. Hazırda feydyeger poçt rabitəsinin fəaliyyəti elə qurulub ki, göndərişlərin çatdırılmasında heç bir problem yoxdur.

Az keçmiş təcrübəli gizir baş əsgər Yeganə Bağırova ilə bağlamaları çeşidləyib qeydiyyata aldılar. Bir qədər sonra avtomobil poçt bağlamalarını bölmələrə aparacaqdı. Həmişə olduğu kimi, baş gizir Ədalət Məmmədovun nəzarəti altında göndərişlər qısa zamanda ünvanına çatdırılacaq.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xəbərlər: hadisələr, faktlar

### Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası BMT Baş Məclisində müşahidəçi statusu almaq üçün müraciət edib



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibi Ramil Həsənovun rəhbərliyi ilə bu qurumun nümayəndə heyətinin Nyu-Yorka səfəri çərçivəsində BMT-nin mənzil-qərargahında qəbul təşkil olunub.

TDƏŞ-dən AZƏRTAC-a bildiriblər ki, qəbulda BMT yanında daimi nümayəndəliklərin rəhbərləri iştirak ediblər.

Mərasimdə Türk Şurası haqqında filmin nümayişindən sonra çıxış edən Ramil Həsənov TDƏŞ-in fəaliyyəti, onun BMT-nin müxtəlif qurumları ilə əməkdaşlığı barədə məlumat verib. O, Şuranın BMT Baş Məclisində müşahidəçi statusu alması üçün müraciət etməsinin önəmini xüsusi vurğulayıb.

### Avropa İttifaqı Aralıq dənizində qaçaqmalçılara qarşı hərbi əməliyyata hazırlaşır



"Nemetskaya volna" radiosu xəbər verir ki, Avropa İttifaqı hökumətləri qeyri-leqal miqrantları Asiyadan və Afrikadan Avropaya keçirən qaçaqmalçı təşkilatlara qarşı hərbi əməliyyat keçirilməsi barədə razılığa gəliblər.

Almaniyanın Müdafiə naziri Ursula fon der Lyayen əməliyyatın birinci mərhələsində bundesferin hərbi-dəniz qüvvələrinin iştirakına razılıq verib.

İlkin hesablamalara görə, əməliyyatın keçirilməsinə təqribən 12 milyon avro vəsait xərclənəcək.

### Dünyanın ən güclü orduları sırasında Türkiyə ordusu 10-cu yerdədir



İqtisadi və texnoloji mövzularda professional yazıları ilə diqqət çəkən İngiltərənin "Business Insider" jurnalı dünyanın ən güclü ordularının siyahısını təqdim edib. APA-nın "sputniknews.com"a istinadən verdiyi məlumata görə, siyahıya ABŞ rəhbərlik edir. 557 milyard dollar büdcəyə malik ABŞ ordusu döyüş təyyarələri və aviadaşıyıcılarına görə digər ölkələri qabaqlayır. Siyahıda Rusiya ikinci, Çin üçüncü, Türkiyə Silahlı Qüvvələri isə onuncudur.

### UNESCO qədim Palmir şəhərinin xilası barədə həyəcan təbili çalmağa başlayıb



Suriyanın Palmir şəhəri dünyanın ən qədim və ən gözəl tarixi abidəsi kimi UNESCO tərəfindən Bəşəriyyətin Ümumdünya Mədəni İrs Siyahısına daxil edilib. Xalqın tarixi mirası olan şəhərin tarixi abidələri İŞİD terrorçularının təhlükəsinə məruz qalmaqdadır. UNESCO onların şəhərin bir kilometrliyinə qədər yaxınlaşması barədə həyəcan təbili çalmağa başlayıb. Radikal düşüncəli terrorçuların İraqda Numrud və Hotra kimi tarixi inciləri və dəyərləri dağıtdıqları heç kimin yadından çıxmayıb. Onların qədim Palmir şəhərinin abidələrini də yerləyeksan edəcəkləri şəkk-şübhə doğurmur. UNESCO-nun baş direktoru İrina Bokova tərəfləri xalqın tarixini və qədim mədəniyyətini özündə əks etdirən Palmir şəhərinə qarşı hər cür hərbi əməliyyatları dayandırmağa çağırıb.

### Bolqarıstanda kimya zavodunda güclü yanğın baş verib



Bolqarıstanın Burqas-Sredets magistralı yaxınlığında yerləşən kimya zavodunda yanğın baş verib. Alov zavodun iki anbarında hazır plastmas məhsullarının alışması ilə başlayıb. Yanğın yaxınlıqda yerləşən istehsalat sexlərinə yaxınlaşır. Bu da ekoloji təhlükə yarada bilər. Zavodun bütün işçiləri evakuasiya edilib. Yanğınsöndürənlər güclü küləyə baxmayaraq alovu söndürməyə cəhd göstərirlər.

### Qədim Nikko şəhərində samurayların möhtəşəm paradı keçirilib



Yaponiyanın qədim şəhərlərindən biri olan Nikkoda yüzlərlə samurayın iştirakı ilə möhtəşəm parad keçirilib. Şəhərdə belə yürüşlər müntəzəm şəkildə təşkil olunsa da, budəfəki yürüş orta əsrlər hökmdarı İeyasu Tokuqavanın vəfatının 400 illiyinə təsadüf etdiyinə görə möhtəşəmliyi ilə diqqəti cəlb edib. Çoxsaylı turistlərin diqqəti əsasən samurayların qılıncı ilə silahlanmış döyüşçülərə yönəlib. Onların yanında isə yüngül muşketlərlə silahlanmış və həmin vaxtlar İeyasu Tokuqavanın ordusunun əsas hissəsini təşkil edən piyadalar addımlayıb. Qədim kahinlərin müşayiət etdikləri yükdaşıyanların çiyinlərində apardıqları müqəddəs rəmzlər günəşin şüaları altında bərq vurub.

### Əbu -Dabidə dəyirmi formada göydələn inşa edilib



Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə dünyada ilk dəfə dəyirmi formada göydələn inşa edilib.

AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, bina layihələndirmə zamanı balıqqulağı formasında qəbul edilib. Dairə həm də səmərəlilik, möhkəmlik və birlik rəmzidir. Bu formanın başlanğıc və son nöqtəsi olmadığı üçün onu sonsuzluq və mükəmməllik simvolu kimi də izah etmək olar. Eyni zamanda, bu dəyirmi göydələn Əbu-Dabidə ekoloji baxımdan zərərsiz sayılan ilk ofis binasıdır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Birincilik gərgin keçib



***Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi və təbliği, kursantlarda hərbi vətənpərvərlik ruhunun formalaşdırılması, təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkili məqsədilə kursantlar arasında bilik yarışması keçirilib.***

İntellektual yarışma iki mərhələni əhatə edib. 1-ci mərhələ 13-25 aprel 2015-ci il tarixdə keçirilib. 5 komandanın iştirak etdiyi yarışda növbəti tura namizədlər seçilib. Bilik yarışmasının sualları mövcud tədris proqramına uyğun olaraq hazırlanmışdı. Aşağıdakı ixtisaslar üzrə kursantların nəzəri bilikləri yoxlanıldı.

- Heydər Əliyev və Azərbaycan dövlətçiliyi;
- Ana dili və ədəbiyyat;
- Tarix və coğrafiya;
- Riyaziyyat;
- Fizika.

Hər bir bölmə üzrə 10 sual olmaqla ümumilikdə 50 test hazırlanmışdı.

Türk dünyasının görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsinə həsr olunmuş intellektual bilik yarışmasını məktəbin müəllimi Azad Əliyev açıq elan edib və tədbir Heydər Əliyevin müdrik kəlamları ilə başlanıb:

"Hər bir xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü elm və mədəniyyətdir".



İlk olaraq "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" mövzusuna müraciət edən kursantlar ulu öndərə aid olan bütün sualları ətraflı cavablandırıblar.

Hər bir komanda birincilik uğrunda gərgin mübarizə aparıb.

Yarışlar başa çatdıqdan sonra münsiflər heyəti qalib komandanı elan edib. 5-ci bölük birinci yerə çıxıb.

Qalib komandada bu kursantlar təmsil olunurdular: Nail Qəribov, Hacıömər Səmədov, İslam Şirəliyev, Əli Əlizadə və Elməddin Xəlilov.

Hərbi Liseydə təşkil olunmuş İntellektual bilik yarışmasını tədbir iştirakçıları maraqla qarşılayıb. Sonda Liseyin rəisi general-mayor Mirzə Almasov qalibləri fəxri fərmanla təltif edib və digər komandalara gələcək yarışlarda uğurlar arzulayıb.

**Mətanət İMAMQULUYEVA**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Tarix*

# "Erməni məsələsi" erməni ideyasıdır

"Erməni məsələsi" tarix səhnəsinə süni bir problem olaraq çıxarılmışdır. "Erməni məsələsi" "Şərq məsələsi" adlandırılan məsələnin bir hissəsidir və ona iki nöqteyi-nəzərdən baxılmalıdır. Zahiri mahiyyət: XIX əsrdə böyük dövlətlər Türkiyəni daha asanlıqla istismar etmək üçün onun mərkəzdənqaçma qüvvələrini gücləndirməyə, beləliklə, ölkəni zəiflətməyə çalışırdılar. Daxili mahiyyət: öz burjuaziyasının rəhbərliyi altında ermənilər milli müqəddəratın müstəqil təyin edilməsi uğrunda mübarizə aparırdılar ki, bu amillərin təsiri altında burjuaziya sərbəst inkişaf edə bilsin. Bu məsələnin işığında erməni terrorizminin ortaya çıxması, ayrı-ayrı ölkələrdə milliyyətçi cərəyan və qrupların yaradılması, milliyyətçi erməni dünyagörüşünün irqçiliyə çevrilməsi prosesi getmişdir. Belə hesab etmək olar ki, Venesiyada "mxitarizm" adı ilə ortaya çıxan milli qrupların fəaliyyəti ilə erməni milliyyətçiliyinin əsasını qoyan İsrael Orinin "erməni planı"ndan tutmuş terrorizmi əsas mübarizə vasitəsinə çevirən siyasi erməni komitə və təşkilatlarına (Armenakan, Erməni İnqilabçı Federasiyası - Daşnaksütyun, Hnçak və b.) qədər uzun bir yol keçilmişdir. Mxitaristlərin təməlini Venesiyada qoyduqları erməni milliyyətçiliyi isə elə əvvəldən xəstə xəyalların əsiri olmuşdur.

"Erməni məsələsi"nin həll edilməsi kimi bir süni problemin uzun zaman araşdırmaçıları, tarixçi-siyasətçiləri məşğul etməsi də bir erməni ideyasıdır. Və müxtəlif mərhələlərdə özünəxas xarakter kəsb etmişdir. Çox zaman da bu, erməni üsyanlarını doğuran səbəb olmuşdur. Adını erməni xalqının milli azadlıq mübarizəsi qoyaraq digər xalqları yox etmə siyasətini aktiv şəkildə yürütməyə girişərkən erməni milliyətçiləri fərqində olmadılar ki, gələcəkdə bu bəladan xilas olmaq çox çətin ola bilər. Erməni milliyyətçiliyi terrorizmə gedən yolda tarixi imperializmlə işbirliyi, onların siyasətini həyata keçirmə, əməkdaşlıq tarixidir.

XIX əsrdən başlayaraq, erməni ideologiyası qan tökməyi təbliğ edirdi və məqsədə çatmaq üçün terroru istisna etmirdi. Birinci Dünya müharibəsi dövründə, Lozan konfransı öncəsi və sonrakı mərhələdə ermənilərin yürütdükləri siyasət, Qaragin Njdenin yaratdığı "Tsexakronizm" və "Andranikizm" də eyni ideya ilə silahlanmışdı. "Harada türk-müsəlman görsən, öldür. Sən bunu etməsən, demək erməni deyilsən". 20-40-cı illərdə də ermənilərin qurduqları milliyyətçi və terrorçu təşkilatlar, erməni terrorçuluq günün davam etdirilməsi "erməni məsələsi"nin tərkib hissəsidir. Ermənilərin terrorçuluq fəaliyyətləri böyük bir dövrü əhatə edir. Onların əhatə etdiyi zaman, siyasi şərait, hədəfə alınan dövlət və ya qurumlar diqqətə alınaraq erməni terrorizminin xarakteri barədə fikir söyləmək olar.

"Soyuq müharibə" illərində qondarma "erməni soyqırımı"na Sovet dəstəyi, Sovetlər Birliyinin dağılması dövründə SSRİ-nin erməni siyasəti maraq doğurur. 1915-ci ilin "erməni soyqırımı" iddialarının əsassızlığı və bu siyasətin arxasında gizlənən həqiqətlərin erməni araşdırmaçıların əsərlərində göstərilməsi bunun yalan olduğunu ortaya qoyur. Bunun üçün kifayət qədər materiallar vardır. Bu mənada Ermənistanın qonşu dövlətlərə ərazi iddiaları "erməni məsələsi"nin tərkib hissəsi kimi və erməni KİV-lərində bunun bir təbliğat vasitəsi olaraq erməni cəmiyyətinin nə qədər irqçi olduğunun göstəricidir. Erməni terrorçu təşkilatlarının hədəf və məqsədləri, erməni işğalının miqyası və xarakteri haqqında gerçəklərə yeni tarixi baxış da aktuallaşır. Onların bu gün də yaratdıqları əksər siyasi və qeyri-siyasi təşkilatların mayasında terrorçuluğa üstünlük verildiyi danılmazdır. Tarix boyunca "Ermənilik" ("Armenizm") ideologiyasını öz xalqına aşılayan erməni siyasətçilərinin dövlət anlayışı da bu zəmin üzərində formalaşmağa meyilli olmuşdur. Bu gün bəşəriyyətin üzləşdiyi erməni terrorizminin keçdiyi yol və onun təhlükəli fəaliyyəti də göstərir ki, "erməni məsələsi" qəsdən ortaya atılmışdır və bir erməni ideyası kimi uzun illərdir ictimaiyyəti məşğul etməkdədir.

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

## Hərbi Liseydə "Qanlı Yanvar" bədii filminin təqdimat mərasimi keçirilib

C.Naxçıvanski adına Hərbi Liseydə Vahid Mustafayevin rejissorluğu ilə çəkilən "Qanlı Yanvar" bədii filminin təqdimat mərasimi keçirilib.

Filmin nümayişindən sonra rejissor, ANS şirkətinin rəhbəri Vahid Mustafayev və filmdə çəkilən bir qrup akyor alqışlarla səhnəyə dəvət olunublar. Vahid Mustafayev kursantlara film barədə məlumat verib.

Sonda yaradıcı kollektiv hərbçilərə gələcək xidmətlərində uğurlar arzulayıb.

*Asudə vaxt*

# Görəsən kim qalib olacaq?..



Bu günlərdə cəbhə bölgəsində, düşmənlə üz-üzə olan mövqelərdə oldum. Burada görüb, müşahidə etdiklərim, sözün əsl mənasında, mənə xoş təsir bağışladı. Əsgərlər üçün yaradılan şərait neçə illərin hərbi şəhərciyindən fərqlənmirdi. Düşmənin bir neçə kilometrliyində müasir tələblərə cavab verən məişət şəraiti ürəyimdə xoş hisslər doğurdu. Trenajor zalı, məişət və ideoloji otaqlar döyüşçülərin ixtiyarındadır. Şəxsi heyətlə iş üzrə cavabdeh zabit Namiq Sultanov bildirdi ki, asudə vaxtlarında əsgərlər ideoloji otaqda qəzet və jurnallar oxuyur, televizor vasitəsilə dünyada və ölkəmizdə baş verən ən son yenilikləri öyrənirlər. İdmana maraq göstərən əsgərlər üçün stolüstü oyunlar - dama, şahmat yarışları təşkil olunur. Öyrəndim ki, əslən Cəbrayıl rayonundan olan əsgər Sakit Atakişiyev və mingəçevirli əsgər Muxtar Əsgərli dama və şahmat oyunlarının qalibləridir.

İstirahət saatlarında əsgərlər hərbi nizamnamələri öyrənirlər. Təqdirəlayiq haldır ki, şəxsi heyət həm hərbi ədəbiyyatla, həm də dövrü mətbuatla təmin olunur. Əsgərlər xalqımızın görkəmli hərb xadimlərinin həyat və fəaliyyətini öyrənir, ətraflı biliklər əldə edirlər. Sözün həqiqi mənasında, burada ideoloji otaq döyüşçülərimizin maariflənməsinə xidmət edir. Həmçinin, çətin döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələn əsgərlər asudə vaxtlarını mənalı keçirməyə imkan tapırlar.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*

# Əsgərin "Leyla"sı

Cəbhə bölgəsinə ezamiyyətlər, səngərlər, döyüş səhnələri, top səsləri, pulemyot şaqqıltısı, güllə vıyıltısı, tank gurultusu... Müharibə ilə bağlı yaddaşımın dərinliyinə hopub qalmış o qədər hadisələr var ki. Onları xatırladıqca çözələnir, yazdıqca yazılır, səhifələndikcə səhifələnir…

1992-ci ilin sonuncu günü cəbhə bölgəsinə ilk ezamiyyətə yollandım. Yeni ili Ağdamda qarşıladım. Qarlı-şaxtalı bir hava idi. Hərbi hissə şəhərin mərkəzindəki məktəblərin birində yerləşirdi. Siniflərdə partaların yerinə əsgər çarpayıları düzülmüşdü, kitabxanaya silah-sursat yığılmışdı.

1993-cü il yanvarın 1-i. Səhərdir. Uzaqdan atəş səsləri eşidilir. Hava tutqun və soyuqdur. Qar ara vermədən asta-asta yerə ələnir. Günəşin üzünü qara buludlar örtdüyündən gözə görsənmir. Bəlkə elə o da haradasa soyuqdan üşüyür.

Səhər ertədən hərbi hissə komandiri Bəxtiyar Abdullayevlə görüşdük. Komandirin qolu sarıqlı idi. Dünənki döyüşdə yaralanmışdı. Qısa tanışlıq başa çatdıqdan sonra vaxt itirmədən Fərrux dağı istiqamətində torpaqlarımızı müdafiə edən hərbçilərin yanına yollandıq...

Şəhərin yarasığı və gəniş küçələrindən keçərək cəbhə xəttinə gedirik. Qarşıdakı döngəyə tərəf yan alandan sonra yollar bizi cəbhə bölgəsinə aparır. Xeyli irəli gedib Fərrux dağının ətəyinə çatırıq. Hər tərəf ağ libasa bürünüb, qar dizə çıxır. Başı göylərə çatan dağın zirvəsini qatı duman bürüyüb.

Xaçınçayı keçib Fərrux dağının yamaclarında səngər quran döyüşçülərlə görüşüb söhbət etdik. Öyrəndim ki, neçə vaxtdan bəri bu əlverişli yüksəklik uğrunda ağır döyüşlər gedir. Fərrux dağı əldən-ələ keçir. Ermənilər bütün qüvvələrini səfərbər edərək bu strateji mövqeyi əldə saxlamaq istəyirlər. Səngərlərində möhkəm dayanmış döyüşçülərimiz də geri çəkilmir, düşmənə müqavimət göstərir, qətiyyətlə vuruşurdular. Nəyin bahasına olursa-olsun, yüksəkliyi əldə saxlamağa çalışırdılar.

Bir neçə saatdan sonra getdiyimiz yollarla geri dönürük. Yolumuz Xaçınçayın sahilində yerləşən Əlağalılar kəndindən keçir. Ətrafdakı mənzərə ürək dağlayır. Vəziyyət gərgin olduğundan sakinlər doğma ocaqlarını tərk ediblər. Kənd susuz dəyirmana bənzəyir. Bəzi evləri mərmi yerlə-yeksan edib. Sahibsiz, ac-yalavac qalmış itlər qarlı küçələri dolaşıb sür-sümük axtarırdı.

Darısqal küçələrdən biri ilə üzüyuxarı qalxırıq. Geniş həyəti və hündür hasarı olan evlərin birinin yanında maşından düşdük. Ehtiyatda olan bölüyün şəxsi heyəti burada yerləşirdi. Əvvəlcə döyüşdən yenicə qayıtmış əsgərlərlə görüşdük. Döyüşlərdən danışanların çöhrələrində təbəssüm oynayırdı, üz-gözlərindən igidlik, cəsurluq yağırdı. Söhbətimizdən sonra əsgərlər bizi çaya qonaq etdilər. Zabit Oqtay Mürsəlov bildirdi ki, Şəki şəhərindən orduya gəlmiş əsgər Xanoğlan İmanovun məlahətli səsi var. O, tez-tez gözəl mahnılar ifa edərək əsgər dostlarını döyüşlərə ruhlandırır.

Bir azdan Xanoğlanla da görüşdük. Ondan bir neçə mahnı oxumağı xahiş etdik. Əsgərlər həyətdə bir az səliqə-sahman yaratdılar, "səhnə" düzəldib haradansa bir qaval da tapıb gətirdilər. Xanoğlan bir az utancaq döyüşçüyə oxşayırdı. Utandığından üzü qızarmışdı. Axır ki, özünü ələ ala bildi. Onu qavalda müşayiət edən əsgər də deyəsən, bu sənətin sahibi idi. Mahnının ritminin düzgün tutulması əsgər İmanovu daha da həvəsləndirirdi.

Xanoğlan yorulmaq bilmədən mahnıları bir-birinə caladı. Onun ifa etdiyi "Leylam" mahnısı qəlbimə daha çox yatdı, ruhumu oxşadı.

…Bu soyuq qış günlərində torpaqlarımızı qoruyan döyüşçülərlə görüşümüz başa çatdı. Bir azdan onlarla sağollaşıb yenidən görüşmək ümidi ilə ayrıldıq. Xanoğlanın məlahətli, qəlbəyatımlı həzin səsi qulaqlarımdan getmir, xəyallarımda dalğa-dalğa ətrafa yayılırdı. Əsgər İmanov bu mahnını çox yanıqlı oxuyurdu. Yəqin ki, həmin vaxtlarda Xanoğlanı kəndlərində gözləyən bir Leylası var idi. Ona görə də bu mahnını bütün gücü ilə oxuyurdu ki, bəlkə səsi qarlı dağlardan aşıb sevgilisinə çatsın. Nə bilim, bəlkə də bu mahnını ucadan oxuyurdu ki, səsi güllələrdən möhkəm çıxsın. İndi fikirləşirəm ki, əsgər İmanov həm də o günlərdə bu torpağı sevgilisi Leyla üçün qoruyurdu.

O vaxtdan "Leylam" mahnısını harada, hansı məclisdə eşidirəmsə, əsgər Xanoğlan İmanov gəlib gözlərim önündə dayanır. Elə bilirəm ki, bəlkə elə bu mahnını ifa edən əsgər İmanovdur, hələ də oxuya-oxuya öz Leylasını soraqlayır. Görəsən, həmin qarlı-şaxtalı günlərdə Xanoğlanın səsi sevgilisinə çatırdımı, görəsən, Xanoğlan qanlı döyüşlərdən sağ-salamat geri dönüb "Leylam" mahnısını ifa edə-edə öz Leylasına qovuşa bilibmi?

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Birinci Avropa Oyunları çərçivəsində "Street Athletics" turniri keçiriləcək

AZƏRTAC xəbər verir ki, birinci Avropa Oyunları çərçivəsində iyunun 24-25-də Bakıdakı Fəvvarələr meydanında şüvüllə və hündürlüyə tullanma üzrə "Street Athletics" turniri keçiriləcək. Turnirin idman direktoru Ukraynanın şüvüllə tullanma üzrə keçmiş idmançısı, 2000-ci il Olimpiya Oyunlarının bürünc mükafatçısı Yelena Qovorovadır. Bakıya Rafael Xoltsdeppe (Almaniya), Aleksandr Qripiç (Rusiya), Stiven Lyuis (Böyük Britaniya), hündürlüyə tullanma üzrə dünya və Avropa çempionu Boqdan Bondarenko, 2014-cü il Avropa çempionatının gümüş mükafatçısı Andrey Protsenko (hər ikisi Ukraynadandır) və başqaları gələcəklər.

## Cüdoçumuz Elmar Qasımov hamıdan öndə



Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. May üçün müəyyənləşən siyahıda Azərbaycan millisinin idmançıları da var. Hacıağa Hacıəhmədovun yetirmələrindən ən yaxşı nəticə Elmar Qasımova məxsusdu. İştirak etdiyi son yarışlarda özünü yaxşı tərəfdən göstərən cüdoçumuz 100 kq çəki dərəcəsində 2-ci pillədədi. Yığmamızın aparıcı üzvlərindən daha 3 həmyerlimiz ilk "10-luq"da qərarlaşıb. Orxan Səfərov (60 kq) 3-cü, Rüstəm Orucov (73 kq) 5-ci və Elxan Məmmədov (100 kq) 8-ci yeri tutur.

## Azərbaycan batutçuları "Frivolten Cup" yarışında üç medal qazanıblar



İsveçdə batut gimnastikası üzrə "Frivolten Cup" beynəlxalq turniri başa çatıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan idmançıları bu yarışda uğurla çıxış edərək üç medal qazanıblar. Gimnastımız Dmitri Fedorovski ikili minitrampda bürünc medala layiq görülüb. O, həmçinin fərdi çıxışda fəxri kürsünün ikinci pilləsinə yüksəlib. Qadınlar arasında fərdi yarışda Sabina Zaytseva çıxışını səhvsiz yerinə yetirərək Azərbaycan yığmasına gümüş medal qazandırıb. Azərbaycan gimnastları finala yüksələrək beşinci yerdə qərarlaşıblar.

## İdmançımız Beynəlxalq Qran-pri yarışlarının qalibi olub



Qəbələ rayonundakı Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilən Olimpiya atıcılıq növləri üzrə II Beynəlxalq Qran-pri yarışları keçirilib. AZƏRTAC xəbər verir ki, atıcılığın səngər stendi üzrə gənc oğlanlar arasında keçirilən yarışda Əlmirzə Quliyev Avstraliyanın iki tanınmış idmançısı Lack Wallageni və Samuel Bilsmanı geridə qoyaraq yarışların qalibi olub.

Qadınların yarışında isə Azərbaycan idmançısı Rəna Ələsgərova uğurlu çıxışı ilə Olimpiya çempionu Makkela-Nummela Satunu (Finlandiya) və Alhaval Saranı (Küveyt) geridə qoyaraq birinci yeri tutub.

## Boksçularımız Xabarovskda 2 medal qazanıb



Rusiyanın Xabarovsk şəhərində Sovet İttifaqı Qəhrəmanı Konstantin Korotkovun xatirəsinə həsr olunan boks üzrə beynəlxalq turnirə yekun vurulub.

Boks Federasiyasından apasport.az saytına verilən məlumata görə, yarışda 16 ölkənin 100-ə yaxın dəri əlcək ustası mübarizə aparıb. Komandamız yarışı 1 qızıl və 1 bürünc medalla başa vurub. 52 kq çəki dərəcəsində çıxış edən İbrahim İbrahimov beynəlxalq turnirin qalibi adına layiq görülüb. 60 kq çəki dərəcəsində mübarizə aparan Nəsrəddin Məmmədov bürünc medalla kifayətlənib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Polkovnik-leytenant Əliyev Hacıağa Əlikişi oğluna 2011-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Polkovnik-leytenant Ağasiyev Ruslan Dünyaməddin oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 474
Nüsxə 4600